BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Ermənistan-Azərbaycan arasında sülh prosesi: əsas məqamlar


Mətin Məmmədli

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


FEVRAL 2026

## Ermənistan-Azərbaycan arasında sülh prosesi: əsas məqamlar

- **Son illərdə regionda yaranmış yeni geosiyasi reallıqlar və beynəlxalq mühitdə baş verən dəyişikliklər Ermənistan-Azərbaycan münasibətlərini yeni mərhələyə, faktiki sülh mərhələsinə keçidini təmin etmişdir;**
- **Sülh prosesində əldə olunan razılaşmalar-xüsusilə sülh sazişi layihəsinin razılaşdırılması və Vaşinqton sammiti-normallaşmanı de-fakto vəziyyətdən hüquqi-institusional müstəviyə daşımışdır;**
- **İqtisadi kommunikasiyaların açılması, tranzit və enerji əməkdaşlığının başlanması, eləcə də vətəndaş cəmiyyəti təmaslarının genişlənməsi faktiki sülhün sosial və iqtisadi dayaqlarını formalaşdırır;**
- **Bununla belə, Ermənistanın daxili siyasi dinamikası və konstitusion-hüquqi qeyri-müəyyənliklər sülh müqaviləsinin imzalanmasını ləngidən və bütövlükdə, sülh prosesinə risk yaradan əsas amillər olaraq qalır.**

2023-cü ilin sentyabrından sonra formalaşmış reallıqlar, beynəlxalq mühitdə baş verən dəyişikliklər Ermənistan-Azərbaycan münasibətlərində keyfiyyətcə yeni situasiya yaratmışdır. Mövcud mərhələdə tərəflər arasında genişmiqyaslı hərbi qarşıdurma riski minimuma enmiş, şərti sərhəddə nisbi sabitlik təmin olunmuş və siyasi dialoq fasiləsiz xarakter almışdır. Bu kontekstdə artıq iki ölkə arasında faktiki sülh vəziyyətinin formalaşdığı qənaətinə gəlmək mümkündür. Azərbaycan Prezidenti İlham Əliyev də müxtəlif çıxışlarında regionda yeni reallıqların yarandığını, faktiki sülhün əldə olunduğunu[1], müharibə mərhələsinin arxada qaldığını və Ermənistanın bu reallıqları qəbul etməsinin sülh müqaviləsinə aparan yolu açdığını qeyd etmişdir. Prezidentin vurğuladığı kimi, “müharibə bitib, regionda yeni status-kvo formalaşıb və bu status-kvo beynəlxalq hüquqa əsaslanır”. Bu tezis faktiki sülhün mövcudluğunu təsdiqləyən əsas siyasi mövqedir. Beləliklə, hazırkı mərhələdə əsas məsələ müharibənin yenidən alovlanması deyil, faktiki sülhün hüquqi-institusional çərçivəyə salınması, yəni sülh müqaviləsinin imzalanmasıdır.

İki ölkə arasında son bir ildə davam edən sülh prosesinə retrospektiv planda nəzər saldıqda ciddi müsbət dinamikanı müşahidə etmək mümkündür. 2025-ci ilin əvvəlindən etibarən sülh prosesində bir neçə mühüm tendensiya diqqəti cəlb etmişdir :

[1] https://president.az/en/articles/view/71601

- Sülh sazişi layihəsi razılaşdırılmışdır. Hər iki ölkənin Xarici İşlər Nazirlikləri 2025-ci il martın 13-də sülh sazişi layihəsini razılaşdırdıqları ilə bağlı bəyanat vermişdir[2].
- Sərhədlərin delimitasiya və demarkasiyası üzrə komissiyaların fəaliyyəti intensivləşdirilmişdir. Tərəflər arasında sovet dövrü xəritələri əsasında ilkin texniki razılaşmalar əldə edilmişdir.
- Nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində ekspert qruplarının görüşləri davam etmişdir.
- Siyasi səviyyədə birbaşa təmasların sayı artmış, üçüncü tərəflərin vasitəçiliyi ilə yanaşı, ikitərəfli format daha da aktivləşmişdir. 2025-ci ilin iyulun 10-da Birləşmiş Ərəb Əmirliyinin paytaxtı Əbu-Dabidə Azərbaycan və Ermənistan liderlərinin görüşü keçirilmişdir. Hər iki tərəf Əbu-Dabidə keçirilən görüşü münasibətlərin normallaşması istiqamətində faydalı hesab etmişdir.
- Ermənistan tərəfinin konstitusion dəyişikliklərə dair daxili müzakirələrə başlaması sülh prosesinin mühüm hüquqi komponenti kimi diqqət çəkmişdir.

**Vaşinqton sammiti**

**2025-ci ilin avqustun 8 – də keçirilmiş Vaşinqton sammiti sülh prosesinin dönüş nöqtəsi kimi qiymətləndirilə bilər.** Sammitdə əldə olunmuş razılaşmalar bir neçə istiqamətdə mühüm əhəmiyyət kəsb etmişdir:

- Sülh müqaviləsinin mətninin paraflanması ;
- Ərazi bütövlüyünün qarşılıqlı tanınmasının bir daha təsdiqi;
- Güc tətbiqindən imtina öhdəliyinin yazılı şəkildə təsbit olunması;
- Nəqliyyat və iqtisadi kommunikasiyaların açılması üzrə konkret yol xəritəsinin müəyyənləşdirilməsi;
- Sərhəddə insidentlərin qarşısının alınması mexanizmlərinin formalaşdırılması.
- Keçmiş münaqişənin qalığı olan ATƏT-in Minsk Qrupunun və onunla əlaqəli strukturların hüquqi mövcudluğuna son qoyulması istiqamətində konkret addımın atılması.

Bu razılaşmalar faktiki sülhü siyasi bəyanat səviyyəsindən institusional mərhələyə keçirmişdir. Əgər əvvəlki mərhələdə sülh daha çox de-fakto sabitlik üzərində qurulmuşdusa, Vaşinqton sammiti həmin sabitliyin hüquqi əsaslarının formalaşmasına xidmət etmişdir.

[2] https://report.az/region-xeberleri/xin-ermenistan-ve-azerbaycan-sulh-muqavilesi-metninin-son-iki-bendini-razilasdiriblar

Fikrimizcə, hazırda davam edən sülh prosesində ABŞ-ın rolu xüsusi qeyd olunmalıdır. ABŞ bu mərhələdə təkcə vasitəçi deyil, həm də qlobal güc statusuna uyğun şəkildə siyasi təminatçı kimi çıxış etmişdir. Dünyanın ən qüdrətli dövləti kimi ABŞ-ın prosesdə iştirakı bir neçə aspektdə mühüm əhəmiyyət kəsb edir. Ən əsası, Birləşmiş Ştatların prosesdə iştirakı razılaşmaların beynəlxalq legitimliyinin güclənməsi və sülh sazişinin icrasına dair beynəlxalq müşahidə və dəstək mexanizmlərinin yaradılması baxımından əhəmiyyətlidir. Digər vacib məqam ABŞ-ın bölgədə rolunun artması ilə regional təhlükəsizlik arxitekturasında yeni balansın formalaşmasıdır. Bütövlükdə, Vaşinqton sammiti göstərdi ki, ABŞ-ın qarantor kimi çıxış etməsi tərəflər üçün əlavə təhlükəsizlik təminatı yaradır və xüsusilə Ermənistanın daxili siyasi tərəddüdlərini neytrallaşdırmaq baxımından mühüm rol oynayır.

Vaşinqton sammitindən sonra münasibətlərdə nəzərəçarpacaq müsbət dinamika müşahidə olunmuşdur:

- **Azərbaycan vasitəsilə Ermənistana yüklərin daşınması praktik mərhələyə keçmişdir;**
- **İki ölkə arasında ilkin iqtisadi əlaqələr formalaşmağa başlamışdır;**
- **Vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri həyata keçirilmişdir;**
- **Humanitar təmaslar artmışdır.**

Tranzit üzrə simvolik və real dönüş nöqtəsi-Azərbaycanın Ermənistana yük tranzitinə qoyduğu məhdudiyyətlərin aradan qaldırılmasıdır. İki ölkə arasında tranzit əlaqələrinin açılmasının ilk nümunəsi kimi 2025-ci ilin oktyabrında Qazaxstan taxılının Azərbaycan ərazisi ilə Ermənistana çatdırılmasıdır. Ermənistan baş nazirinin ofisi bunu regional kommunikasiyaların açılması və etimadın institusionallaşması üçün "böyük əhəmiyyətli addım" adlandırmışdır [3]. Sonradan Azərbaycan üzərindən Ermənistana yükdaşımaların artması tranzit mexanizminin qısa müddətdə "ad hoc"dan "davamlı xətt"ə keçdiyini təsdiq etdi. Paralel olaraq son aylarda iki ölkə arasında enerji-ticarət xətti də açılıb. Ötən ilin dekabr ayında SOCAR-ın yerli istehsal olunan neft məhsulları Ermənistana göndərilib, 1220 ton AI-95 benzin 22 vaqonda Gürcüstan vasitəsilə daşınıb və bu barədə razılığın 28 noyabr 2025-də Qəbələdə baş nazir müavinləri səviyyəsində əldə olunduğu bildirilir[4]. Burada həm rəqəm, həm də

---

[3] https://www.reuters.com/world/azerbaijan-lifts-curbs-cargo-transit-armenia-sign-growing-peace-2025-10-21/

[4] https://azertag.az/en/xeber/azerbaijan_launches_first_batch_of_oil_products_to_armenia_from_boyuk_kesik_station-3925971

institusional mexanizm aydın görünür. Ümumiyyətlə, rəsmi məlumata görə 2025-ci ildə Azərbaycandan Ermənistana ixracın dəyərinin 788 800 ABŞ dolları olduğu və əks istiqamətdə ixracın qeydə alınmadığı bildirilir[5]. Bu göstərici hələ ki ümumi ticarət dövriyyəsi miqyasında kiçikdir, lakin "sıfırdan sonra ilk rəqəm" kimi siyasi əhəmiyyət daşıyır.

İki ölkə arasında normallaşma prosesinin vacib aspektlərindən biri də cəmiyyətlər arasında etimad quruculuğudur. Bütövlükdə, toplumlararası təmasları faktiki sülhün sosial dayağı hesab etmək olar-həm riski azaldır, həm də sülhün ictimai əsasını möhkəmləndirir. Məhz bu məqsədlə də 2025-ci ilin payızında və 2026-cı ilin fevralında "the Peace Bridge İnitiative" təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri təşkil olunub. Rəsmi səviyyədə bu təmasların legitimləşdirilməsi liderlərin sonuncu Əbu-Dabi görüş xülasəsində də qeyd edilir: tərəflər vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərini alqışlayır və etimad quruculuğu tədbirlərinin genişləndirilməsinin zəruriliyini qeyd edirlər. Bu, toplumlararası münasibətlərin dövlət səviyyəli sülh arxitekturasına "yardımçı sütun" kimi daxil edildiyini göstərir[6].

Bütün bunlarla bərabər, əvvəldə də qeyd edildiyi kimi şərti sərhəddə də hərbi eskalasiya faktiki olaraq aradan qalxmışdır. Atəşkəs pozuntularının sayı minimuma enmiş, hərbi ritorika zəifləmiş və təhlükəsizlik mühitində nisbi sabitlik yaranmışdır. Bu isə sülh müqaviləsinin imzalanması üçün siyasi və psixoloji zəmin yaradır.

**Sülh prosesinin mühüm istiqamətlərindən biri TRİPP (Beynəlxalq Sülh və Rifah naminə Tramp marşurutu) layihəsinin reallaşması ilə bağlı praktiki işlərin görülməsidir.** Bu layihə regionda nəqliyyat, enerji və logistika infrastrukturunun inteqrasiyasını nəzərdə tutur.

TRİPP çərçivəsində:

- Regional tranzit xətlərinin açılması;
- Multimodal logistika marşrutlarının yaradılması;
- Ticarət dövriyyəsinin artması;
- Qarşılıqlı iqtisadi asılılığın formalaşması planlaşdırılır.

Tarixi təcrübə göstərir ki, iqtisadi qarşılıqlı asılılıq münaqişə riskini azaldan əsas amillərdəndir. Bu baxımdan TRİPP layihəsini təkcə iqtisadi təşəbbüs kimi deyil, həm də təhlükəsizlik mexanizmi kimi dəyərləndirmək olar.

Beləliklə, iki ölkə arasında normallaşma prosesində müsbət dinamika müşahidə edilsə də və faktiki sülh mövcud olsa da regionda dayanıqlı sülhün formalaşması üçün

[5] https://report.az/en/business/azerbaijan-s-exports-to-armenia-in-2025-disclosed
[6] https://president.az/az/articles/view/71470

daha çox işlərin görülməsinə ehtiyac var. Bu işlərdən ən vacibi təbii ki, iki ölkə arasında sülh müqaviləsinin imzalanmasıdır. Ancaq məlum olduğu kimi sülh müqaviləsi hələ də imzalanmamışdır. Bunun əsas səbəbi Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının dolayı formada qalması və hüquqi qeyri-müəyyənliyin davam etməsidir. Azərbaycan tərəfi haqlı olaraq hesab edir ki, konstitusion səviyyədə ərazi iddiası aradan qaldırılmadan imzalanacaq müqavilə gələcəkdə hüquqi – siyasi manipulyasiya alətinə çevrilə bilər. Bu isə davamlı sülh prinsipinə ziddir. Qeyd olunanları nəzərə alaraq əminliklə demək olar ki, Ermənistan bu il yeni konstitusiya qəbul edərsə və orada Azərbaycana qarşı hər hansı ərazi iddiaları tam aradan qaldırılarsa, sülh müqaviləsinin 2026-cı ildə imzalanması real görünür. Azərbaycan prezidenti İlham Əliyev məsələ ilə bağlı mövqeyini aydın ifadə edib: "düzəliş edilən kimi ertəsi gün" imza mümkündür[7]. Prezidentin bu açıqlaması sülh müqaviləsinin imzalanması ilə bağlı Azərbaycan dövlətinin siyasi iradəsini nümayiş etdirir. Ermənistan konstitusiyasına düzəliş ediləcəyi halda hüquqi maneə aradan qalxar və tərəflər faktiki sülhü de-yure sülhə çevirə bilərlər.

Onu da qeyd edək ki, iki ölkə arasında münasibətlərdə müşahidə edilən müsbət məqamlarla yanaşı sülh prosesinə perspektivdə mane ola biləcək potensial təhdidlər də mövcuddur. Fikrimizcə, hazırki mərhələdə əsas təhdid Ermənistan daxilində baş verən siyasi proseslərlə bağlıdır. Revanşist qüvvələr qarşıdan gələn seçkilərdə ciddi uğur əldə edərlərsə, prosesin dayanması və ya geriyə dönüş riski yarana bilər. İyunda keçiriləcək seçkilərə hazırlaşan Ermənistanın əsas müxalifət qüvvələrinin siyasi platformalarına, səsləndirdikləri bəyanatlara, bəlli xarici güc mərkəzlərinə (və yaxud güc mərkəzinə) bağlılıqlarını nəzərə aldıqda vəziyyətin həqiqətən də mürəkkəb olması qənaətinə gəlmək olar. Qeyd edək ki, revanşizm ideologiyası regional inteqrasiyanı deyil, keçmiş status-kvonun bərpasını hədəfləyir. Bu isə həm regional sabitlik, həm də Ermənistanın öz inkişaf perspektivləri üçün təhlükəlidir.

**Nəticə**

Ermənistan-Azərbaycan münasibətlərində formalaşmış hazırkı mərhələ klassik münaqişə sonrası keçid dövrünün nümunəsi kimi xarakterizə oluna bilər. Regionda genişmiqyaslı hərbi toqquşma ehtimalı minimuma enmiş, siyasi dialoq davamlı xarakter almış və tərəflər arasında qarşılıqlı ərazi bütövlüyünün tanınması prinsipial səviyyədə təsdiqlənmişdir. Bu baxımdan faktiki sülhün mövcudluğu artıq siyasi

[7] https://president.az/en/articles/view/71601

reallıqdır. Lakin bu reallığın hüquqi sənədlə təsbit olunmaması prosesi tamamlanmamış edir və onu potensial risklərə açıq vəziyyətdə saxlayır.

Vaşinqton sammiti sülh prosesinin institusionallaşması baxımından dönüş nöqtəsi olmuşdur. Əldə olunan razılaşmalar-sülh müqaviləsinin paraflanması, güc tətbiqindən imtinanın yazılı şəkildə təsbiti, sərhəd təhlükəsizlik mexanizmlərinin formalaşdırılması və kommunikasiya xətlərinin açılması üzrə konkret yol xəritəsi-faktiki sabitliyi hüquqi çərçivəyə salmağa xidmət edir. Bu mərhələdə ABŞ-ın qlobal güc və siyasi təminatçı kimi iştirakı razılaşmaların beynəlxalq legitimliyini gücləndirərək regionda yeni təhlükəsizlik balansının formalaşmasına təsir göstərmişdir.

Eyni zamanda iqtisadi və humanitar istiqamətdə müşahidə olunan müsbət dinamika sülhün sosial, iqtisadi dayaqlarını genişləndirir. Tranzit xətlərinin açılması, enerji məhsullarının ixracı, ilkin ticarət dövriyyəsinin formalaşması və vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri göstərir ki, normallaşma prosesi artıq təkcə siyasi elitaların gündəliyi deyil, mərhələli şəkildə cəmiyyətlərə də sirayət etməyə başlayır. İqtisadi qarşılıqlı asılılığın artması uzunmüddətli perspektivdə münaqişə riskini azaldan mühüm element kimi çıxış edə bilər. Bununla belə, davamlı və geri dönməz sülhün təmin olunması üçün əsas şərtlrdən biri hüquqi qeyri-müəyyənliyin aradan qaldırılmasıdır. Ermənistan konstitusiyasında Azərbaycana qarşı dolayı ərazi iddialarının qalması sülh müqaviləsinin imzalanmasına fundamental maneə yaradır. Hüquqi ziddiyyət aradan qaldırılmadan imzalanacaq sənəd gələcəkdə siyasi manipulyasiya predmetinə çevrilə və əldə olunmuş nailiyyətləri risk altına sala bilər. Bu səbəbdən konstitusion dəyişiklik məsələsi yalnız texniki-hüquqi düzəliş deyil, regional təhlükəsizlik arxitekturasının təməl elementi kimi qiymətləndirilməlidir. Digər tərəfdən, iyunda keçiriləcək seçkilər fonunda Ermənistan daxilində revanşist siyasi qüvvələrin fəallaşması və onların seçkilərdə uğur əldə etməsi ehtimalı sülh prosesinə ciddi təhdidlər yaradır. Sülh gündəliyinin daxili siyasi mübarizənin alətinə çevrilməsi normallaşma dinamikasını zəiflədə və əldə edilmiş etimadı sarsıda bilər. Bu baxımdan sülhün davamlılığı yalnız hökumətlərarası razılaşmalarla deyil, həm də daxili siyasi konsensusun formalaşması ilə bağlıdır.

Nəticə etibarilə, Ermənistan-Azərbaycan münasibətləri hazırda faktiki sülhdən hüquqi sülhə keçidin həlledici mərhələsindədir. Əgər konstitusion maneələr aradan qaldırılarsa və tərəflər əldə edilmiş razılaşmaları institusional mexanizmlərlə möhkəmləndirərsə, yaxın perspektivdə sülh müqaviləsinin imzalanması real görünür. Bununla belə, o da qeyd olunmalıdır ki, uzunmüddətli və dayanıqlı sülh yalnız sənəd imzalamaqla məhdudlaşmır, o, iqtisadi inteqrasiya, qarşılıqlı asılılıq, təhlükəsizlik

mexanizmlərinin sabit fəaliyyəti və cəmiyyətlərarası etimadın davamlı şəkildə möhkəmləndirilməsi ilə mümkün olacaqdır. Beləliklə, region yeni tarixi mərhələnin astanasındadır: ya faktiki sülh hüquqi və institusional təminatla möhkəmlənərək Cənubi Qafqazda yeni təhlükəsizlik modelinin əsasını qoyacaq, ya da daxili və xarici risk faktorları prosesin ləngiməsinə səbəb olacaqdır. Mövcud dinamika göstərir ki, siyasi iradə və hüquqi addımlar paralel şəkildə atılarsa, davamlı sülh perspektivi kifayət qədər realdır.

**Müəllif: Mətin Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri**